**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**NIGAR ƏKRƏM QIZI HÜSEYNOVA**

# MİLLİ MƏDƏNİYYƏTLƏR ZAMAN VƏ MƏKAN KONTEKSTİNDƏ: SOSİAL-FƏLSƏFİ TƏHLİL

7207.01 – Sosial fəlsəfə

Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2014**

Dissertasiya AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun Sosial fəlsəfə şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** fəlsəfə üzrə elmlər doktoru, professor
**Azər Xoşbəxt oğlu Mustafayev**

**Rəsmi opponentlər**: fəlsəfə üzrə elmlər doktoru, professor
**İzzət Əşrəf oğlu Rüstəmov**

fəlsəfə üzrə elmlər doktoru, professor
**Məmməd Hüseyn oğlu Rzayev**

**Aparıcı təşkilat:** **Bakı Slavyan Universiteti ("Azərbaycan tarixi və ictimai elmlər" kafedrası)**

Müdafiə "_24_" "_10__" 2014-cü il saat___AMEA – nın Fəlsəfə və Hüquq İnstitutunun nəzdindəki fəlsəfə üzrə elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsi üzrə D.01.115 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Bakı-Az – 1143, Hüseyn Cavid prospekti, 31, AMEA-nın Fəlsəfə və Hüquq İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" "______________" 2014-cü il tarixində göndərilmişdir.

**D.01.115 Dissertasiya Şurasının**
**elmi katibi, fəlsəfə üzrə fəlsəfə**
**doktoru:** **Sevinc Arif qızı Həsənova**

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Sosial fəlsəfə elmində insanın dünyaya münasibəti, onun özü və dünya haqqında təsəvvürlərini əks etdirən mədəniyyət fenomeni mühüm problemlərdən biridir. Yaşadığımız hər bir cəmiyyət müxtəlif dinlərə, dillərə, irqlərə, həyat tərzlərinə mənsub olan insanlardan ibarətdir ki, onların da dinamik və fasiləsiz inkişafı özünəməxsus spesifik cəhətlərdən, ilk növbədə milli özünüdərk və identiklikdən asılıdır. Müasir dövrün inkişafı milli mədəniyyətlərin struktur-sistem təşkilində bir sıra dəyişikliklərə gətirib çıxarmışdır. Bu istiqamətdə baş verən bəzi neqativ məqamlardan biri də – kütləvi cəmiyyətin və mədəniyyətin, eyni zamanda konformist və deqradasiyaya uğrayan insanın meydana gəlməsidir. Bizcə, qlobal miqyas alan bu ziddiyyətli prosesin qarşısı mütləq alınmalıdır. Çünki dünyanın inkişafı da, sabitliyi də ilk növbədə məhz milli-mədəni özünəməxsusluğun qorunub saxlanılması ilə bağlıdır. Bu mənada milli mədəniyyətlərin zaman və məkan kontekstində formalaşması, inkişafı və gələcək perspektivlərinin sosial-fəlsəfi təhlili olduqca əhəmiyyətli və dəyərlidir.

Məlumdur ki, mədəniyyət sosial təcrübənin toplanılması və ötürülməsi, eləcə də insanın yaradıcı fəaliyyətə sövq edilməsi baxımından sivilizasiyalar tarixində müstəsna rol oynamışdır. Öz növbəsində həmin bu iki proses əsas etibarilə bir-biri ilə sıx bağlıdır. Lakin qloballaşma prosesi mədəniyyətə təsir edərək, beynəlxalq miqyasda ünsiyyət və inteqrasiya imkanlarını artırır. Nəticədə həm bir çox milli mədəniyyətlərin müxtəlif sahələri geniş yayılır, öz təsir imkanlarını artırır, həm də bəzi yerli və ya regional milli mədəniyyətlər sıxışdırılıb aradan çıxarılır. Milli-mədəni dəyərlərin təsirə məruz qalması onların mənsub olduğu milli mədəniyyətlərin dirçəlişi uğrunda mübarizəni labüd edir. Bu istiqamətdə öz həllini gözləyən və ön plana çəkilən vəzifələrdən biri də müasir mənəvi dəyərlərin mahiyyətini təhlil etmək, milli özünüdərk baxımından milli mədəniyyətlər çağdaş cəmiyyətdə, onun strukturunda, etnomədəni faktorlar sırasında yerini müəyyənləşdirməkdir.

Bilindiyi kimi, XX əsrdə Azərbaycanın sosial-mədəni həyatında tərəqqi və intibahla yanaşı, böyük sarsıntılar və faciələr də baş vermişdir. Lakin XX əsrin 90-cı illərinin ortalarından etibarən vəziyyətin yaxşılaşması istiqamətində əsaslı dəyişikliklər baş vermiş, sürətli iqtisadi və sosial-mədəni yeniləşmə üçün zəmin yaranmışdır. Bu mənada araşdırılan problemin aktuallığı baxımından bir məqamı xüsusi qeyd etməyə ehtiyac duyulur. Söhbət Ulu Öndər H.Ə.Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciətindən gedir. Müraciətdə deyildiyi kimi: "...bu gün artıq bütün bəşəriyyət, bütün xalqlar və millətlər bilirlər ki, mədəniyyət, elm və təhsil insanların ən böyük mənəvi dəyərləri olaraq sabit inkişafı təmin edən mühüm amillərdən biridir. Qlobal dəyişikliklər baş verən bir dövrdə biz bütün səylərimizi bu böyük sərvətin qorunub saxlanılmasına sərf etməliyik"[1]. Deməli, milli-mənəvi dəyərlərin sabit inkişafın mühüm amili kimi dərk olunması, daim zənginləşdirilməsi, bütövlükdə intellektual potensialın yüksəldilməsi vətəndaş cəmiyyətinin bərqərar olması üçün mühüm şərtdir.

**Problemin işlənmə dərəcəsi.** Bütün humanitar və ictimai elmlər sahəsində olduğu kimi sosial fəlsəfə istiqamətində aparılan tədqiqatlarda da mədəniyyət problemi və onun mühüm tərkib hissəsi hesab edilən milli mədəniyyətlərin müxtəlif aspektləri kifayət qədər tədqiq edilmişdir. Bu mənada adı çəkilən mövzu ilə bağlı aparılan tədqiqatları aşağıdakı şəkildə qruplaşdırmaq olar:

Birinci qrupa ümumiyyətlə "mədəniyyət" fenomeninin təhlilinə, onun fəlsəfi, sosioloji, tarixi, hüquqi, siyasi, iqtisadi və mənəvi-psixoloji xüsusiyyətlərinin araşdırılmasına dair tədqiqatlar aiddir. Bu istiqamətdə xüsusi olaraq, Qərbi Avropa və ABŞ-da H.Kogen, P.Natorp, Q.Almond, S.Verba, Rusiyada V.Mejuyev, A.Kravçenko, M.S.Kaqan, V.Petrov, İ Smirnov, B. Yakovenko, Azərbaycanda F.Məmmədov, T.Əfəndiyev, R.Əhmədli, A.Şirinov,

[1] Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciəti. Bakı: Bakı Universiteti nəşriyyatı, 2001, s. 127;

N.Şəmsizadə, Q.Abbasova və digər tədqiqatçıların əsərlərini qeyd etmək lazımdır[2].

İkinci qrupa aid edilən araşdırmalar sırf etnik, yəni sosial qrup baxımından yanaşılan mədəni inkişaf və bu zəmində yaranmış milli mədəniyyətlərin xüsusiyyətlərini təhlil edən alimlərin, o cümlədən Azərbaycanda İ.Məmmədzadənin, İ.Rüstəmov, K.Əzimovun, R.Əzimova, A.Əsədov, Ə.Əhmədov, R. Ulusel, R.Aslanovanın, A.Mustafayevin, H.Quliyevin, xarici tədqiqatçılardan B.Andersonun, O.Bauerin, M.Hroxun, S.Basovun, M.Demetradzenin, Q.Diligenskinin, K.Hacıyevin, Y.Kirilovskayanın, S.Kirdinanın, V.Malaxovun, A.Saninanın, Y.Semyonovun, C.Vitemarkın, U.Rossun, T.Bloklandın, B.Mortarın, S.Faynşteynin

[2] Коген Г. Теория агностцизма Канта. Перевод с нем. Б.М.Белова. Москва: Академическая Пресса, 2012, 618 с.; Натарп П. Культура народа и культура личности. Пер. с нем. М.М.Рубинштейна. СПб., 1912,189 с.; Almond G., Verba S. The civic Culture Revsited Lettle, Brown, 1980,232 p.;Мамедов Ф. Культурология. Вопросы теории и истории (Материалы к лекциям и семинарам. Статьи, доклады и выступления). Ассоциация культуры Азербайджана "Симург". Баку: Синал, 2002, 534 с. ;Əhmədli R.A. Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi: türkçülük, müasirlik, islamçılıq. Bakı: Elm, 2007. 280 s.; Şəmsizadə N. Azərbaycan ideoloqiyası. Bakı: Sabah, 1996, 103 s.; Əfəndiyev T. Mədəniyyətdə tarixilik və müasirlik. Bakı: Təhsil, 2011, 392 s.; A.Şirinov Sosial zaman və sosial məkan. Bakı: Təknur, 2012, 304 s.; Аббасова К.Я. Философия в системе культуры. Теория и практика. Баку; Изд .БГУ, 2007, 255 с.; Антология исследований культуры. Интерпретация культуры. С-Пб.: Университетская книга, 1997. 728 с.; Межуев В.М. Культура и история. Проблема культуры в философско-исторической теории марксизма. Москва: Мысль, 1977, 197 с.; Каган М.С. Философия культуры.СПб:Петрополис.1996, 416 с.; Кравченко А.И. Культурология: Учебное пособие для вузов. 3-е изд. Москва: Академический проект, 2001, 496 с.; Философия культуры. Становление и развитие. СПб.: Издательство «Лань», 1998, 448 с.; Петров В.Н. Этнические миграции в современной России: детерминанты и типология // Социологические исследования, 2009, № 10, с.48-56; Яковенко Б. О теоретической философии Германа Когена. Кн.1. Москва.: Тип. Рус. Т-ва, 1910. с. 199-249, və s.; Смирнов И.П. Мегаистории. К исторической типологии культуры. Москва: Аграф, 2000, 544 с.



və başqalarının əsərlərini özündə ehtiva edir.[3] Bu halda mövzunun milli ideologiya və psixologiya ilə bağlılığı, milli mədəniyyətlərin tarixi inkişaf mərhələləri, dinamikası, tərəqqisi və tənəzzülü, dünya

[3] Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. Bakı: Elm, 2004, 264 s.; Mustafayev A.X. Təbii-elmi idrak və insan dünyası. Bakı:Təknur, 2011, 463 s.(müştərək); Məmmədzadə İ. Bir daha fəlsəfə haqqında. Müasir yanaşmalar: təmayüllər, perspektivlər. Baki: Təknur, 2012, 216 s. Məmmədzadə İ. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfnin aktuallığı haqqında. Bakı: Təknur, 2009, 220 s.; Rüstəmov İ. Seçilmiş əsərləri. Bakı:Turan NE, 2012, 432 s.;Азимов К. Проблема человека в религиозно-философских доктринах зороастризма и исламе. Баку: изд. Detterpress, 2009, 304 s. ; Əhmədov Ə. İ. Kulturologiya. Dərs vəsaiti. Bakı: Nurlan, 2003, 180 s.; Əsədov A., N.Əsədova Azərbaycan mədəniyyətinin inkişafında regional resusrsların əhəmiyyəti. Bakı: Fəlsəfi Maarifçilik Assosiasiyasının nəşri, 2012, 40 s.;Əzimova R.C. İnsanşünaslıq XXI əsrin elmidir. Bakı: Təknur, 2012, 156 s.; Ulusel R. Mədəniyyət və texnosivilizasiya. Bakı: Nurlar, 2003, 187 s. ;yenə də onun. Şərq və Qərb sivilizasiyalarının qarşılıqlı əlaqəsi. // Fəlsəfə və sosial-siyasi elmlər, 2004, №4, s.41-49; Кулиев Г.Г. Архетипичный азери: лики менталитета. Баку: «Ени Несил», 2002, 246 с.; Vəliyev K. Elin yaddaşı. Bakı: Gənclik, 1987. – 280 s.; Андерсон. Б., Бауэр О., Хрох М. и др. Нации и национализм. Москва: «Праксис», 2000, 410 s.; Басов С.А. Гражданское общество и гражданские отношения: поиск смысла // Социологические отношения, 2012, № 2, с. 74-82; Деметрадзе М.Р. Ядро традиционных ценностей как феномен постсоветских обществ // Социологические исследования, 2012, № 3, с. 120-127; Дилигенский Г.Г. Конец истории или смена цивилизаций? // Вопросы философии, № 3, 1990, с.29-42; Гаджиев К.С. Национальная идентичность: концептуальный аспект // Вопросы философии, 2011, № 10, с. 3-16; Кириловская Е. В. Исторический характер формирования норм национальной культуры как системы социализации индивида: На материале хакасской культуры XVIII -XX вв. Автореф. канд. дисс. … культурол. наук, Абакан: 2003, 23 с.; Киященко Н.И. Культура гражданского общества // Вопросы философии, 2010, 10, с.62-66; Кулиев Г.Г. Архетипичный азери: лики менталитета. Баку: «Ени Несил», 2002, 246 с.; Малахов В.С. Национальное государство, национальная культура и культурный суверенитет // Вопросы философии, 2011, № 9, с. 87-94; Семенов Ю.И. Философия истории (Общая теория, основные проблемы, идеи и концепции от древности до наших дней). — Москва: Современные тетради, 2003. — 776 с.; Justus Uitermark, Ugo Rossi, Henk Van Houtum. Reinventing Multiculturalism: Urban Citizenship and the Negotiation of Ethnic Diversity in Amsterdam // International Journal of Urban and Regional Research Volume 29, Issue 3, pages 622–640, September 2005; Talja Blokland. Bricks, Mortar, Memories: Neighbourhood and Networks in Collective Acts of Remembering // International Journal of Urban and Regional Research Volume 25, Issue 2, pages 268–283, June 2001; Susan S. Fainstein. Mega-projects in New York, London and Amsterdam // International Journal of Urban and Regional Research Volume 32, Issue 4, pages 768–785, December 2008; Silvio Waisbord and Claudia Mellado. Qərbləşmə, cosmopolitizm və qloballaşma: kommunikasiya nəzəriyyələrinin geomədəni sərhədləri // ISI Journal Citation Reports © Ranking: 2011: 13/72 (Communication) və s.

mədəniyyətinin müxtəlif sahələrini əhatə edən din, incəsənət, ədəbiyyat, adət və ənənələrin, həmçinin vətəndaş cəmiyyəti strukturlarının, yeni informasiya-kommunikasiya texnologiyalarının təsiri yollarının araşdırılması diqqət mərkəzində olmuşdur.

Tədqiqatların üçüncü qrupu sırf Azərbaycan milli mədəniyyətinin müxtəlif sahələrinin tədqiqi ilə bağlıdır. Bu tədqiqatçılar arasında ilk növbədə tarix sahəsində çalışan alimlərin - İ.Əliyev, Z.Bunyadov, S.Qasımova, Y.Mahmudovun, iqtisadi fikir tarixində Azərbaycanın milli-mənəvi mədəniyyətinin problemlərini təhlil edən T.Vəliyev, Y.Məmmədov və başqalarının xidmətləri qeyd olunmalıdır. Milli mədəniyyətimizi fəlsəfi və filoloji aspektdən araşdıranlar arasında F.Köçərli, Z.Göyüşov, H.Quliyev, S. Məmmədəliyeva, B.Qurbanov, S.Xəlilov, N.Cəfərov, A.Rüstəmova, R.Aslanova, N.Abbasovun və başqaların adlarını çəkmək olar[4]. Bütövlükdə, müstəqillik illərində Azərbaycan xalqının keçmişi, bu günü, gələcəyi ilə bağlı çoxlu sayda tədqiqatlar olsa da, lakin milli

[4] Алиев И.Г. Очерк истории Атропатены. Баку: Азернешр, 1989, 160 с.; Буниятов З.М. Государство Атабеков Азербайджана (1136-1225 годы). Баку: Элм, 1978, 271 с.; Касумова С. Азербайджан в III-VII веках (Этнокультурная и социально-экономическая история). Баку: Элм, 1993, 138 с; Köçərli F. M.F.Axundovun dünyagörüşü. Bakı:Elm, 1999, 122s;.Göyüşov Z. Azərbaycan maarifçilərinin əsərlərində əxlaq məsələləri (XX əsrin sonu XX əsrin əvvəlləri). Bakı: Azərnəşr, 1964, 191 s.;Abbasov N. Müasir şəraitdə Azərbaycan dövlətinin mədəniyyət siyasəti və mənəvi dəyərlərin inkişaf amilləri. Bakı: Təknur, 2008, 239 s.; Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. Bakı: Elm, 2004, 264 s.; Cəfərov N. Azərbaycanşünaslığa giriş. Bakı, AzAtaM, 2002,602 s.; Cəfərzadə Z.N. Şərq mədəniyyətlərinin tarixi tipologiyasının metodoloji problemləri. Kulturologiya elm. nam. ... dis. avtoref. Bakı: 2008, 24 s.; Rüstəmova A. Sosial linqvistikanın fəlsəfi poblemləri. Bakı:Adiloğlu, 2005, 200 s..; Məmmədəliyeva S. Qloballaşma dövründə mədəniyyətlərin fəlsəfi aspektləri. Bakı: Nurlar, 2006, 224 s.
Qurbanov B. Azərbaycan incəsənəti: təriflər, təhriflər. Bakı, Araz, 2001, 192 s.; Xəlilov S. Şərq və Qərb:ümumbəşəri ideala doğru. Bakı: Azərbaycan Universiteti, 2004, 624 s.; Əlizadə A. Estetik mədəniyyət və varislik. Bakı: 2005, 290 s.; Haqverdiyev A.A. Müstəqil Azərbaycan mədəniyyətinin aktual problemləri. Kulturologiya elm. nam… dis. avtoref. Bakı: ADMİU, 2005, 29 s.; Махмудов Я.М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами (вторая половина XV-XVII века). Баку: изд. Бакинского университета, 1991, 264 с.; Очерки истории азербайджанской экономической мысли. Баку: Азернешр, 1987, 312 с.



mədəniyyətin sosial zaman və məkan kontekstində fəlsəfi təhlili müasir dövrün tələbləri baxımından qənaətbəxş deyildir. Mövcud qloballaşma şəratində ictimai həyatın sürət tempi artır, eyni zamanda xarici mühitin milli mədəniyyətlərə təsiri güclənir, nəticədə milli özünəməxsusluğu qoruyub saxlamaq getdikcə mürəkkəbləşir.

Ona görə də milli mədəniyyətlərin, o cümlədən Azərbaycan milli mədəniyyətinin sosial məkan və zaman kontekstində inkişafının sosial-fəlsəfi aspektdən araşdırılması olduqca aktual, zəruri və əhəmiyyətlidir. Mövzu ilə bağlı müvafiq ədəbiyyatın elmi təhlili göstərir ki, fəlsəfi səpgidə sistemli və hərtərəfli ümumiləşdirmələr bu günədək kifayət qədər aparılmamış və problemin bəzi aspektləri özünün yetərli həllini tapmamışdır.

**Tədqiqatın obyekti** – milli mədəniyyət, **predmeti** isə bu mədəniyyətin sosial zaman və məkan müstəvisində inkişafının fəlsəfi təhlilidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın **məqsədi** – milli mədəniyyətlərin sosial zaman və məkan kontekstində fəlsəfi təhlilini verməkdən, **vəzifələri** isə bu məqsədə uyğun olaraq aşağıdakı prinsipləri həyata keçirməkdən ibarətdir:

– mürəkkəb quruluşlu ictimai şuura malik sosial münasibətlər sistemində mədəniyyət probleminin nəzəri və metodoloji əsaslarını təhlil etmək;

– mədəniyyət fəlsəfəsində millilik ilə ümumbəşərilik probleminin sosial mahiyyətini və onun tarixi inkişaf mərhələlərini konkret faktlar əsasında açıqlamaq;

– milli mədəniyyətlərin sosial zaman və məkan çərçivəsində ahəngdar inkişafına mane olan bəzi neqativ halları aşkarlamaqla, onların həlli yollarını göstərmək;

– mədəniyyətlərarası münasibətlərdə sosial gərginliyin yaranması və onun həlli yollarının müəyyən edilməsi istiqamətində milli özünüdərk prosesinin öyrənilməsini təmin etmək;

– milli şüurun inkişafına təsir edən varislik və müasirlik prinsiplərinin əxz edilməsində milli dəyərlərin spesifik inkişaf xüsusiyyətlərinin sosial-fəlsəfi təhlilini vermək;

– demokratik təhsisatların, o cümlədən hüquqi dövlətin və vətəndaş cəmiyyətinin formalaşmasında milli mədəniyyətlərin rolunu müəyyən etmək;

– milli mədəniyyətlərdə baş verən qloballaşma prosesini tarixi gedişatın zəruri şərti kimi nəzərə almaqla bu sahədə olan müsbət və mənfi dəyişiklikləri aşkar etmək;
– Azərbaycan cəmiyyətində milli mənlik şüurunun təşəkkülü və inkişafı prosesində mədəniyyətin əhəmiyyətini açıqlamaq;
– müasir Azərbaycan cəmiyyətinin yeniləşməsinə xidmət edən milli mədəniyyət amilinin sosial zaman və məkan çərçivəsində sistemli təsnifatını vermək;
– müstəqil Azərbaycanın mədəniyyət siyasətində milli--mənəvi və mədəni sərvətlərin yerini müəyyənləşdirmək;
– müasir Qərblə modernləşən Azərbaycanın mədəni əlaqələrinin mədəniyyət sistemində əhəmiyyətini elmi dövriyyəyə cəlb etmək.

**Tədqiqatın nəzəri-metodoloji əsaslarını** fəlsəfi paradiqmaların təşəkkülü və müasir inkişafı baxımından milli mədəniyyətlərin sosial zaman və məkan hüdudlarında tədqiqi, dünya fəlsəfəsində milli mədəniyyət probleminin təhlili zamanı məntiqilik və tarixilik prinsiplərinin gözlənilməsi, mövcud ideyalar və konsepsiyaların təhlilinə sistemli yanaşmalar təşkil edir.

Tədqiqat işində fəlsəfə, sosiologiya, tarix və həmçinin digər humanitar və ictimai elmlərdə tətbiq edilən, bilavasitə klassik xarakter daşıyan elmi yanaşma, o cümlədən sistemli-struktur təhlil, müşahidə metodlarından istifadə olunmuşdur. Şübhəsiz ki, tədqiqatın xarakterinə uyğun olaraq müasir elmin səviyyəsi, eyni zamanda post qeyri-klassik paradiqmalar da ön plana çəkilir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi müasir Azərbaycan fəlsəfəsində ilk cəhdlərdən biri olaraq milli mədəniyyətlərin sosial zaman-məkan kontekstində sistemli və hərtərəfli təhlilindən ibarətdir. Problemə elmi yanaşma, başqa sözlə tədqiqatın elmi yeniliyinin elementləri aşağıdakı müddəalarda öz əksini tapmışdır:
- qloballaşan dünyada mədəni müxtəlifliyin, o cümlədən, onun milli formalarının sosial zaman-məkan müstəvisində mövcudluğu və inkişaf etmə səbəbləri aşkar edilir;
- milli mədəniyyətlərin forma və məzmunu ilə bağlı müxtəlif səpkili elmi yanaşmalar müəyyən edilir, həmçinin onların təsnifatı verilir;



- mədəniyyət fəlsəfəsində millilikIə ümumbəşərilik probleminin mahiyyəti, onların qarşılıqlı münasibətləri, tarixi inkişaf mərhələləri və müasir vəziyyəti səciyyələndirilir;
- milli mədəniyyətlərin inkişafında varislik və müasirlik prinsipləri sosial-fəlsəfi cəhətdən təhlil edilərək, sistemli yanaşma prinsipi əsasında milli-mənəvi dəyərlərin qorunub saxlanılması üçün bir sıra tövsiyə xarakterli təkliflər irəli sürülür;
- Azərbaycan cəmiyyətinin modernləşməsində milli mədəniyyət amilinin rolunu qabarıq göstərmək məqsədilə milli mədəniyyətin bütün növlərinin təzahür formaları öyrənilir, milli mənlik şüurunun təşəkkülü və inkişafı prosesində mədəniyyətin rolu açıqlanır, milli mədəniyyətin bir sıra sahələrinin inkişaf xüsusiyyətləri təhlil edilir, onun aparıcı istiqamətləri müəyyənləşdirilir; müasir Qərblə yeniləşən Azərbaycanın mədəniyyət sistemində milli-mədəni əlaqələrinin yerini müəyyən etmək cəhdi həyata keçirilir. Azərbaycanın Qərbə və ümumdünya sosiomədəni məkanına inteqrasiyasının sürəti və özünəməxsusluğunun milli-mənəvi dəyərlərin qorunub saxlanıl-masından asılılığı ön plana çəkilir;

**Dissertasiyanın praktiki əhəmiyyəti** – ilk növbədə Azərbaycan milli mədəniyyətinin tətbiqi sahələri, onun ölkədə baş verən sosial-siyasi və mənəvi-mədəni proseslərlə qarşılıqlı təsiri, cəmiyyətin müxtəlif sosial-mədəni təsisatlarının əməli fəaliyyəti ilə sıx əlaqədardır.

Dissertasiyadakı materiallar mədəni həyatın müxtəlif sahələrində milli dəyərlərin əxz olunması prosesini idarə etmək, eləcə də sistemli şəkildə planlaşdırma və proqnozlaşdırmanın geniş imkanlarından istifadə edərək cəmiyyət üzvlərinin mənəvi cəhətdən tərbiyə olunması və onların milli mentallığının zəngnləşdirilməsi baxımından praktiki əhəmiyyət kəsb edir.

Real praktikada sosial siyasətin bir çox istiqamətlərini formalaşdırmaqla milli mədəniyyətin hələ də sonadək istifadə olunmayan imkanlarını üzə çıxartmaq, bütün Azərbaycan xalqını vahid bir sosiomədəni topluma çevirmək üçün görülən əməli tədbirlərin şərh olunması bilavasitə dissertasiyanın praktiki əhəmiyyəti ilə bağlıdır.

Həmçinin, əldə olunan materiallar, nəticələr, praktiki tövsiyələr elmi-tədqiqat və tədris proseslərində istifadə oluna bilər.

**Dissertasiya işinin aprobasiyası** – Tədqiqat işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun Sosial fəlsəfə şöbəsində yerinə yetirilmişdir. Dissertasiya işinin əsas məzmunu və müddəaları müəllifin ölkə daxilində və xaricdə çap olunmuş məqalələrində, iştirak və çıxış etdiyi respublika və beynəlxalq səviyyəli elmi-praktiki konfransların materiallarında öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu** – dissertasiya işi giriş, üç fəsil, doqquz yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, onun işlənmə dərəcəsi araşdırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri-metodoloji əsasları və praktiki əhəmiyyəti müəyyənləşdirilir, işin aprobasiyası və strukturu açıqlanır. "**Milli mədəniyyətlərin sosial zaman və məkan müstəvisində qarşılıqlı əlaqəsi tarixi inkişafin obyektiv qanunauyğunluğu kimi**" adlanan birinci fəsil üç yarımfəsli əhatə edir. Bu fəslin **"Müasir fəlsəfi təlimlər sistemində mədəniyyət fenomeninin nəzəri və metodoloji əsasları"** sərlövhəli ilk yarımfəslində mədəniyyət anlayışı açıqlanır, ictimai inkişaf kontekstində onun nəzər-metodoloji məsələləri araşdırılır.

Qeyd olunur ki, insan cəmiyyətinin istənilən istiqamətdə tədqiqi ilk növbədə mədəniyyət probleminin öyrənilməsini nəzərdə tutur, çünki cəmiyyətin inkişafı da mədəniyyətin formalaşması zəminində baş verir. Milli mədəniyyətin fəlsəfi aspektdən tədqiqinin çətinliyi bir tərəfdən mədəniyyətin tədqiqat obyektinin genişliyi ilə, digər tərəfdən isə fəlsəfənin həm dünyagörüşü, həm də bir elm kimi özünün bir sıra problemlərinin mövcudluğu ilə bağlıdır. Mədəniyyətin fəlsəfi məzmunu hər şeydən əvvəl insanın mənəvi fəaliyyəti ilə əlaqədardır. Bunu da mənəvi mədəniyyət və ya cəmiyyətin mənəvi həyatı adlandırmaq olar.

Bu yarımfəsildə qeyd olunur ki, ümummədəni proses və etnik təfəkkürün təşəkkülü yeni bir müstəvidə inkişaf edir, konkret bir ərazi hüdudlarında millətin formalaşması nəticəsində milli



mədəniyyət onun varlığının ayrılmaz tərkib hissəsinə çevrilir. "Milli mədəniyyət" bir fəlsəfi kateqoriya olaraq xalq, millət, kapitalizm və ictimai şüur formalarının təhlilini tələb edir. Başqa sözlə "milli mədəniyyət" anlayışının fəlsəfi məzmununa milli mentalitet haqqında təsəvvürlər, xalqın etnik xüsusiyyətləri, onun dili, incəsənəti, ədəbiyyatı, həyat tərzi, dini inamı, həmçinin təhsilin inkişaf səviyyəsi, bütövlükdə insanın sosial kapitalı daxildir. "Milli mədəniyyət" anlayışı müxtəlif xalqların sosial inkişafında oxşar və fərqli cəhətlərin mövcudluğuna əsaslanır[5].

Beləliklə, mədəniyyət müasir fəlsəfivə digər ictimai elmlər sistemində mühüm yer tutan, elmlərarası, inteqrativ xarakterə malik olan tədqiqat sahəsidir.

Birinci fəslin **"Mədəniyyət fəlsəfəsində millilik ilə ümumbəşəriliyin vəhdəti və nisbəti problemi"** adlanan ikinci yarımfəslində mədəniyyət fəlsəfəsi çərçivəsində milliliklə ümumbəşəriliyin əlaqəsi, onların qarşılıqlı surətdə bir-birini zənginləşdirməsi qeyd olunur və problemin tarixi inkişaf prosesində xüsusi kəsb etdiyi məsələlərə aydınlıq gətirilir.

Ümumiyyətlə, fəlsəfə tarixində millilik və ümumbəşəriliklə bağlı məsələlərin təhlili geniş sosial-siyasi və iqtisadi proseslərin fonunda getmiş, bu da tədqiqatçıların mövqeyinə əsaslı şəkildə təsir etmişdir. Fəlsəfə tarixindən məlumdur ki, ümumbəşərilik ən qədim dövrlərdən etibarən kosmosentrik, teosentrik və yaxud antroposentrik zəmində formalaşıb inkişaf etmişdir. İşdə qeyd olunur ki, dövlətlərin formalaşması, milli mədəniyyətlərin təşəkkülü zamanı sosial amillərin təsiri altında şüurda kütləviləşmə prosesləri baş vermişdir. Bu mənada çox ehtimal ki, antroposentrizm meylləri də insan cəmiyyətinin həyatında kütləviləşmə hallarının artması ilə əlaqəlidir.

Bu yarımfəsildə, həmçinin göstərilir ki, tarixi inkişaf nəticəsində ərazilər üzrə aparılan bölgü zamanı formalaşmış siyasi birliklər, yəni dövlətlər inkişaf etdikcə, xalqların sosial-iqtisadi və mənəvi inkişafında da yeni meyllər xeyli güclənmişdir. Əgər əvvəlki ənənəvi cəmiyyətlərdə adətlərin rolu, ənənələrin insanların mənəviyyatlarına təsiri güclü olmuşdursa, kapitalizm şəraitində bu

[5] Философия культуры. Становление и развитие. СПб.: Издательство «Лань», 1998, с.9

rolu yeni həyat tərzi, yeni dövlət ideologiyası oynamağa başladı. Bu isə son nəticədə millilik kimi mənəvi sosial hadisənin meydana gəlməsinə səbəb olmuşdur.

Beləliklə, millət kimi etnososial birliyin tarix səhnəsinə gəlməsinin səbəbi cəmiyyətdə baş verən sosial-iqtisadi və siyasi proseslər olmuşdur. Aydındır ki, millilik və ümumbəşərilik kateqoriyaları məzmunca fərqli olsalar da, sosial mühit, tarixi inkişaf burada qarşılıqlı təsir üçün də şərait yaradırdı[6].

Təsadüfi deyildir ki, "millilik" və "ümumbəşərilik" anlayışları fəlsəfə tarixində adətən insan probleminin mühüm tərkib hissəsi kimi təhlil olunmuşdur. Hal-hazırda insanın potensial imkanları o qədər artmışdır ki, o, artıq yeni sosial zaman-məkan hüdudlarında, yeni mənəvi dəyərlərdə, yeni siyasi birliklərdə, millətlərdə öz ifadəsini taparaq, özünəməxsus xüsusiyyətlərini nümayiş etdirə bilmişdir[7]. Beləliklə, bu yarımfəsildə mühüm fəlsəfi cərəyanların millilik və ümumbəşərilik probleminin mahiyyəti və strukturuna dair yanaşmaları təhlil olunmuş, onlara münasibət bildirilmişdir

Birinci fəslin **"Milli mədəniyyətlərin fəlsəfi təhlili sosial zaman və məkan çərçivəsində"** adlanan üçüncü yarımfəslində konkret sosial zaman və məkan amillərinin dünyanın müxtəlif regionlarında milli mədəniyyətlərin inkişafına təsiri ilə şərtlənən xüsusiyyətləri təhlil olunur. Qeyd edilir ki, sivilizasiyanın məzmunu, onun inkişaf meylləri və mexanizmləri çoxşaxəlidir. Əsrlər boyu ayrı-ayrı regionlarda baş verən bu inkişaf həmin ərazilərdə müxtəlifliyə, mürəkkəbliyə və tərəqqiyə stimul yaratmış, eyni zamanda hər bir özünəməxsusluğu təkmilləşdirməyə, mühitə uyğun dəyişikliklərə səbəb olmuşdur. Bu sivilizasiya öz zəngin məzmunu sayəsində ilk növbədə müxtəlif xalqların, irqlərin qarşılıqlı təsirini gücləndirmiş, onların inkişafına yeni çalarlar bəxş etmişdir[8].

[6] Markuze A. One dimensional man. Poutledge Paul, 1964, p. 48

[7] Национализм в поздне - и посткоммунистической Европе. Т.1. Неудавшийся национализм многонациональных и частично национальных государств. Москва: РОССПЭН, 2010, с. 34

[8] Аксюнов Б.В. Кризис традиционных форм духовной культуры в современной цивилизации. Автореф. дис. … канд. филос. наук. Ставрополь: 2002, с.11



İctimai həyatın bir çox sahələrində olduğu kimi, mənəvi mədəniyyətin fəaliyyəti də özünəməxsus qanunauyğunluqlar əsasında həyata keçirilir. Bu səbəbdən də tarixin hər bir mərhələsində, bütün cəmiyyət miqyasında milli-etnik inkişafda insan amili mühüm rol oynamışdır. Nəticədə konkret bir regionu, ərazini əhatə edən, özünəməxsusluğunu dildə, dində, həyat tərzində daim təsdiqləyən bir sıra sosial xüsusiyyətlərə malik insan birliyi yaranmışdır.

Adı çəkilən yarımfəsildə göstərilir ki, müasir cəmiyyətdə neoliberal meyllərin üstünlük təşkil etdiyi və səbəbindən sosial rifahın yüksək olduğu dövlətlərdə nəsillərarası, etnik, eləcə də gender münaqişələrinin təsiri müşahidə olunur. Dəyərlərin yeniləşməsi prosesi ağrılı olmaqla yanaşı, həm də şüurda bir sıra təhriflərə səbəb olur, nəticədə korrupsiya, rüşvətxorluq insan şüurunu daxildən parçalayır, adət-ənənələr itir və s.[9]

Bildiyimiz kimi, milli mədəniyyətlərin tarixi həm oxşar, həm fərqli cəhətlərə və əlamətlərə malikdir. Onların inkişafına təsir edən amillər sırasında sosial-siyasi və iqtisadi prosesləri də göstərmək olar. Çünki bu proseslər qloballaşma şəklində öz təsirini hələ də davam etdirir. Bu baxımdan hazırda fəlsəfə elminin qarşısında bir sıra yeni vəzifələr durur. Həmin vəzifələrə müasir mədəniyyətdə milli və ümumbəşəriliyin məzmununu aşkar etmək, ahəngdar inkişaf yollarını axtarıb tapmaq və sairəni aid etmək olar.

Dissertasiyanın "**Milli mədəniyyətlər qarşılıqlı təsir mexanizminə malik universal fəlsəfi dəyərlər sistemidir**" adlı ikinci fəsli üç yarımfəsildən ibarətsdir. Adı çəkilən fəslin ilk yarımfəsli **"Milli mədəniyyətlərin inkişafında varislik və müasirlik prinsiplərinin sosial-fəlsəfi təhlili"** adlanır.

Tədqiqat işində qeyd edilir ki, müxtəlif sosial institutların əsasını təşkil edən norma və dəyərlərin inkişafında ardıcıllıq prinsipinin həyata keçirilməsi nəticəsində milli mədəniyyətin mənəvi məzmunu cəmiyyətin sosial-iqtisadi və siyasi inkişafının obyektiv şəraiti ilə müəyyən edilən xüsusiyyətləri özündə əks etdirir.

Bu səbəbdən tədqiqatçıların əksəriyyəti "milli mədəniyyətlərin inkişafı mərhələləri" anlayışının kompleks, sistemli, metodoloji

[9] Гаджиев А., Султанзаде В. Деидеологизация или мифологизация? // «Эхо», 10 марта 2004 г.

yanaşma əsasında təhlilinə üstünlük verirlər. Həmçinin, nəzərə alınır ki, hər bir belə mərhələ bütün əvvəlki tarixi inkişafın üzərində qurulur[10].

Beləliklə, milli mədəniyyətlərin təşəkkülü və sonrakı inkişaf mərhələləri kapitalist istehsal münasibətlərinin və onlara uyğun siyasi və mənəvi üstqurumun yaradılması və formalaşması prizmasından təhlil olunmalıdır. Milli mədəniyyətlərin tərəqqisinin yüksək mərhələsi – XX yüzilliyin sonu və indiki yüzilliyin başlanğıcıdır. Burada qarşılıqlı təsir prosesi daha intensiv xarakter alır.

Azərbaycan mədəniyyətinin təşəkkül tapmış tarixi mərhələləri onun Şərq və ümumdünya mədəniyyətləri ilə əlaqədar olduğunu göstərir. Burada islam mədəniyyətinin oynadığı xüsusi rol qeyd olunmalıdır. Bildiyimiz kimi, xalq mədəniyyəti müxtəlif regional, dini və mənəvi-mədəni təsirlər altında daima dəyişmiş və inkişaf etmişdir. "Daha bir əhəmiyyətli amil – türk (oğuz-səlcuq) dilli mədəniyyətin yaranıb formalaşmasıdır. Azərbaycan milli mədəniyyətinin təşəkkül tapmasında ənənəvi mədəniyyətin rolunun da müəyyən edilməsi məqsədəuyğun olardı. Demək olar ki, milli mədəniyyətin əsasında ilk növbədə qeyd edilən və digər əhəmiyyətli prioritetlər axtarılıb tapılmalıdır"[11].

Söylənilən fikirlər zəminində belə qənaətə gəlinir ki, Azərbaycan türk dünyasının tərkib hissəsi kimi özündə həm Qərb, həm də Şərq mədəniyyətlərinin sintezini birləşdirir. Eyni zamanda bu regionda dil və din ilə bağlı olan ənənəvi xarakterli mədəni keyfiyyətlər də mövcuddur.

İkinci fəslin **"Milli mədəniyyətlər vətəndaş cəmiyyəti quruculuğu prosesində"** adlı növbəti yarımfəslində göstərilir ki, Azərbaycan mədəniyyətinin mühüm tərkib hissələrinin biri də siyasi mədəniyyətdir. Ümumiyyətlə, siyasi mədəniyyətin formalaşmasına təsir edən amillər çoxdur. Bunların arasında sivilizasiyanı, yəni dünyanın ümumi inkişaf istiqamətini, cəmiyyətdə siyasi təşkilinin formalaşması xüsusiyyətlərini də göstərmək olar. Müasir araşdırmalar sübut edir ki, bir sıra hallarda vətəndaş cəmiyyətinin

[10] Андерсон Б., Бауэр О., Хрох М.. Нации и национализм. М.: Праксис. 2002, s.8
[11] Cəfərov N. Azərbaycan mədəniyyəti // "Ədəbiyyat və incəsənət", 17 mart 1989-cu il, № 11(2354)



dəyərləri milli ideologiya süzgəcindən keçirilərək qiymətləndirilir. Bu cəmiyyət sosial idarəetmə forması kimi bilavasitə dövlətin fəaliyyəti ilə əlaqədardır. Vətəndaş cəmiyyətinin inkişafı ilə bağlı proseslər bütün dünyada təxminən eyni məcrada baş verir: daha dəqiq desək, əhalinin getdikcə geniş təbəqələri sosial həyatda yaxından iştirak edir, müxtəlif təşkilatlar yaranır və s. Azərbaycanda da müxtəlif cəmiyyətlər, birliklər, hərəkatlar şəklində vətəndaşların sosial fəallığı genişlənir. Respublikamızda bu sahədə aparılan işlər ümidvericidir. Çünki həmrəylik, vətəndaşlıq sülhünə nail olmaq üçün dövlət tərəfindən lazımı addımlar atılır.

Bazar iqtisadiyyatının inkişafı digər amillərlə yanaşı, həm də vətəndaş cəmiyyətinin institusional əsaslarını yaradır. Azərbaycanda müxtəlif mülkiyyət formaları, bir çox istehsal sahələrində sahibkarlıq formalaşır, orta sinfin inkişafı üçün zəmin yaranır, bununla da vətəndaş cəmiyyətinin təkmilləşdirilməsi və insanların iqtisadi azadlığı istiqamətində irəliyə doğru mühüm addımlar atılır. Dövlət quruluşunda da bir sıra prinsipial dəyişikliklər baş verməlidir ki, siyasi mədəniyyət yüksəlsin, ilk növbədə vətəndaş cəmiyyəti səviyyəsində siyasi iştirak genişlənsin, hüquqi təsisatların fəaliyyətini təkmilləşdirmək üçün yeni imkanlar yaransın. Milli identiklik əməkdaşlığa çevrildiyi halda sosial inteqrasiya, həmrəylik üçün zəmin olmaq rolunu yerinə yetirə bilər [12].

Bu yarımfəsildə göstərilir ki, milli mədəniyyətin inkişafında varisliyi təmin etmək üçün ilk növbədə tarixi hadisələrin obyektiv gedişatı haqqında tam təsəvvür olmalıdır. Eyni zamanda belə təsəvvürlərin konseptual platforması olmadan onların qavranılması və təsir gücü yox dərəcəsində ola bilər. Bu mənada tarixi tədqiqatlarda obyektivlik, dəqiqliklə yanaşı, həm də paradiqmal xarakterli biliklərdən istifadə olunmalıdır.

Milli mədəniyyət tarixi cəmiyyətin bütün sahələrinə, o cümlədən vətəndaş cəmiyyətinin də formalaşması prosesinə güclü təsir göstərir. Müasir dövrdə sosial inkişafın əsas istiqamətləri sübut edir ki, milli mədəniyyət və onun əsasını təşkil edən milli ideologiya öz daxilində müxtəlif dəyişikliklərə məruz qalır. Çünki burada əsas

[12] Azərbaycan beynəlxalq aləmdə // http://files.preslib.az/projects/azerbaijan

meyl ümumbəşəriliyə və vətəndaş cəmiyyətinə doğru istiqamətlənmədir.

İkinci fəslin "**Milli mədəniyyətlərdə qloballaşma prosesi real gerçəkliyin təzahürü kimi**" adlanan sonuncü, üçüncü yarımfəslində göstərilir ki, müəyyən müddət ərzində fəaliyyət göstərən mədəni qanunauyğunluqlar və xüsusiyyətlər - adət-ənənələr, din, dil, incəsənət sahələrini mental səviyyədə birləşdirən milli mədəniyyət anlayışının vahid milli ideya əsasında təşəkkül tapması və s. insanların həyat fəaliyyətinin bir çox sahələrinə ciddi təsir edir. Kapitalizm mərhələsində milli ideologiya və onun üzərində formalaşan milli mədəniyyətlər xalqların sürətli inkişafı, siyasi psixologiya baxımından vahidliyi, eləcə də bütövlüyü üçün geniş imkanlar yaratmışdır. Deməli, əgər milli, millət anlayışlarının formalaşması mərhələsində tolerantlıq bütövlülüyə doğru hərəkət edən insan kütlələrini birləşməyə, vahid bir sosiuma çevrilməsinə imkan verirdisə, indiki, qloballaşma mərhələsində, əksinə, cəmiyyətdə artmaqda olan müxtəlifliyə geniş meydan yaratmaq üçün tətbiq edilir[13].

Milli mədəniyyətlərdə qloballaşmanın təzahürü həm də miqrasiya sahəsində özünü göstərir. Məlumdur ki, bu proseslərdə ideoloji amilin rolu olduqca böyükdür[14].

Adı çəkilən yarımfəsildə qeyd olunur ki, milli mədəniyyətlərin inkişafına qloballaşma tarixi gedişatın obyektiv şərti kimi mühüm təsir göstərir. Qloballaşma şəraitində milli mədəniyyətlərin, bir tərəfdən inkişafı, təkmilləşməsi üçün geniş imkanlar açılır, digər tərəfdən isə özünüməxsusluğun qorunub saxlanılması şəraiti məhdudlaşır. Araşdırılan bir çox faktların, hadisələrin təhlili əsasında belə bir nəticəyə gəlmək olar ki, mədəniyyətdə milliliyin qorunub saxlanılması qloballaşmanın daha sürətlə inkişaf edən tərəflərinin mənfi təsirlərindən uzaqlaşmaq üçün dövlət müstəqilliyini təmin edən amillərin, yəni

[13] Галкин А.А., Красин Ю.А. Культура толерантности перед вызовами глобализации // Социологические исследования, 2003, № 8, s. 64

[14] Петров В.Н. Этнические миграции в современной России: детерминанты и типология // Социологические исследования, 2009, № 10, с.48-56



dövlətin gücünü təşkil edən sahələrin sürətli və davamlı inkişafını təmin etmək lazımdır.

Dissertasiyanın "**Azərbaycan milli mədəniyyəti sosial zaman kontekstində**" adlanan üçüncü fəsli də üç yarımfəsli əhatə edir. Bu fəslin **"Milli özünüdərkin təşəkkülü və inkişafı prosesində Azərbaycan milli mədəniyyətinin rolu"** adlanan ilk yarımfəslində milli özünüdərkin təşəkkülü və inkişafı Azərbaycan reallıqlarını əks etdirən konkret faktlar əsasında kifayət qədər mürəkkəb və çoxşaxəli proses kimi araşdırılır.

İlk növbədə qeyd edilir ki, sosial həyatın özü insan tərəfindən yaradılmış mədəni bir hadisədir. Burada mənəvi mədəniyyətin müxtəlif sahələrinin inkişafı bütövlükdə sosial həyata təsir edir, onun yeniləşməsində, mədəni cəhətdən zənginləşməsində mühüm rol oynayır. Həmin təsirin bir neçə istiqamətini göstərmək daha məqsədəuyğun olardı. Belə ki, bu istiqamətlərdən biri kimi dil, mürəkkəb və inkişaf etməkdə olan kommunikativ sistem olaraq bütün sosial həyat sahələrini birləşdirir, əldə edilmiş məlumatları qoruyub saxlayır və gələcək nəsillərə ötürür. Mənəvi mədəniyyətin daha bir təsir istiqaməti – din, dini münasibətlər, dini qurumlar, dini ideyalardır. Müasir dövrdə də din mühüm sosial institut kimi dəyərlilik baxımından öz əhəmiyyətini itirməmişdir. Başqa bir istiqamət - siyasət və siyasətlə bağlı mədəniyyət ilk növbədə idarəetmə mədəniyyətini ifadə edir. Siyasi iştirak, elektorat və elektoral davranış mədəniyyəti, vətəndaş cəmiyyətinin inkişaf xüsusiyyətləri, demokratik ənənələr, yerli idarəetmə səviyyəsində idarəçilik mədəniyyəti, hər bir kəsin idarəetmədə iştirak imkanını ifadə edən siyasi mədəniyyət və s. bu qəbildəndirlər. Mənəvi mədəniyyətin mühüm fəaliyyət istiqamətlərindən biri də incəsənət və ədəbiyyatdır. Burada söhbət ilk növbədə estetik şüur və bədii zövqün formalaşmasından gedir. Digər bir istiqamət iqtisadi davranış və iqtisadi mədəniyyət sahələrində formalaşan mədəni dəyərlər uzun

tarixi inkişaf yolu keçmişdir. İstehsal formaları, istehlak mədəniyyəti, sosial qrup və təbəqələrin istehsal münasibətləri ilə şərtlənən həyat tərzi bu sahədə gedən proseslərin təzahürü və təsdiqidir. Yeni ekoloji təfəkkürün formalaşması bəşəriyyətin hələ ki əlçatmaz arzusu olan ekoloji mədəniyyətin rüşeymlərinin yaranması ilə müşayiət olunur[15].

Bu yarımfəsildə göstərilir ki, dövlətin həyata keçirdiyi sosial siyasətin bütün aspektlərində hakim mövqeyi azərbaycançılıq ideyası tutmalı, dövlət və cəmiyyət arasında yeni, daha mütərəqqi əlaqələr yaranmalıdır. Azərbaycanın istər regionda, istərsə də dünyada tutduğu mövqe yalnız iqtisadi amillərlə əlaqədar olmamalıdır. Başqa sözlə, bu sahədə həm də əsrlər boyu toplanıb əldə edilmiş böyük, zəngin mənəvi dəyərlər – milli mədəniyyətə daxil olan dil, din, dünyagörüşü, incəsənət, ədəbiyyat, əxlaqi normalar və təsəvvürlər, bunların üzərində qurulan həyat tərzi öz təsir imkanlarını nümayiş etdirməlidir.

Dissertasiyanın üçüncü fəslinin ikinci yarımfəsli "**Müasir Azərbaycan cəmiyyətinin modernləşməsində milli mədəniyyət amili**" adlanır. Bu yarımfəsildə ilk növbədə modernləşmə prosesində milli özünüdərkin rolu araşdırılır.

Burada "özünüdərk" kateqoriyası həm fəlsəfədə, həm də psixologiyada geniş tətbiq edilən anlayış kimi insan tərəfindən hər hansı bir ideya, fikir, mühakimə üzərində refleksiyanı bildirir.Çünki, insan düşünərkən, həmin ideyanın məzmununu bir növ öz daxili aləmindən keçirir, «özününküləşdirir» və öz «Mən»inin tərkib hissəsinə çevirir[16]. Mənəvi dəyərlərin milli özünüdərk səviyyəsində insanlara aşılanması prosesi aşağıdakı əsas istiqamətlər üzrə gedir:

- tədrisdə bütün təhsil sistemini, təlim və tərbiyəni əhatə etməklə;
- sosial idarəetmənin bütün pillələrində;
- bədii təfəkkürdə ilk növbədə tarixi şəxsiyyətlərə, hadisələrə və dövrlərə obyektiv münasibətin aşılanması;

[15] Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Bülleteni, 2010, № 4 (64) // https://pipl.com/directory/

[16] Единство мира и многообразие культур (материалы «круглого стола» украинских и русских философов) // Вопросы философии, 2011, № 9, с.30



-gündəlik fəaliyyət sahələrini əhatə edən ünsiyyətdə.

Qeyd olunur ki, milli-mənəvi prioritetlər zəminində formalaşan dəyərlərin inkişafı aşağıdakı nəticələrə gətirib çıxarır:

-hər bir vətəndaş humanizm prinsiplərinə əsaslanan ideologiyanı qavramalıdır;

-gündəlik stereotiplər və etiket qaydaları ümumbəşəri dəyərlər və milli prioritetlər zəminində formalaşıb insan şüurunda öz əksini və ifadəsini tapmalıdır;

-şüurlu şəkildə ekoloji mədəniyyətin formalaşmasında həmin mədəniyyətin real şəkildə gündəlik həyatda öz əksini tapması təmin edilməlidir.

Deməli, milli zəmində yaranan və təkamülə məruz qalan mədəni irs qorunmalı və yeni müstəvidə inkişaf etdirilməlidir.

Üçüncü fəslin "**Milli-mədəni əlaqələr mədəniyyət sistemində: müasir Qərb və yeniləşən Azərbaycan**" adlanan üçüncü yarımfəslində müstəqil Azərbaycan ilə Qərb ölkələri arasında mədəni əlaqələrin sosial-fəlsəfi təhlili verilir.

Qeyd olunur ki, müasir şəraitdə dünya ölkələri və xalqları arasında beynəlxalq mədəni əlaqələrin təşəkkülünə müxtəlif amillər,o cümlədən qloballaşma, demokratikləşmə inteqrasiya prosesləri və s. fəal təsir edir. Bu çoxşaxəli əlaqələr elm, təhsil, mədəniyyət, idman və turizm sahələrindəki münasibətləri əhatə edir, həmçinin qlobal səviyyədə mədəni əlaqələrin inkişafında dövlətlərarası münasibətlərlə yanaşı, diaspor və beynəlxalq təşkilatların da xüsusi rolu şərh edilir.

Məlum olduğu kimi, ümumdünya mədəniyyətlərarası münasibətlər sistemində layiqli yer tutan Azərbaycanın beynəlxalq mədəni əlaqələri zəngin və qədim tarixə malikdir. Şərqlə sıx mədəni bağlılıq şəraitində yaşamış Azərbaycan sonralar Qərb ölkələri ilə də mədəni əlaqələr qurmuşdur. Müasir Qərb və yeniləşən Azərbaycan arasındakı mədəni münasibətləri sosial-fəlsəfi təhlil əsasında aşağıdakı şəkildə təsnifatlaşdırmaq olar: 1. Azərbaycan- Şimali Amerika (ABŞ, Kanada) mədəni əlaqələri. 2. Azərbaycan – Qərbi Avropa mədəni əlaqələri. 3. Azərbaycan-Şərqi Avropa və postsovet ölkələri (Baltikyanı respublikalar, Ukrayna, Belarus, Rusiya, Moldova) və başqaları arasında qarşılıqlı mədəni münasibətlər.

Bu yarımfəsildə həmçinin, göstərilir ki, dünyada qloballaşmanın təsiri nəticəsində bir- birinə zidd olan iki proses baş

verir. Bir tərəfdən mədəni əlaqələrlə bağlı inteqrasiya prosesləri güclənir, ümumbəşəri, ümumdünya mədəniyyəti formalaşır. Digər tərəfdən isə milli özünəməxsusluğun, milliliyin, milli-mədəni müxtəlifliyin qorunması uğrunda mübarizə gedir. Başqa sözlə, kosmopolit təfəkkür və milli özünüdərketmə arasında ziddiyyət yaranır. Deməli bu problemi aradan qaldırmaq üçün ictimai və humanitar elmlər sahəsində metodoloji yanaşmaların sintezini yaratmaq, elmlərarası inteqrasiyanı gücləndirmək zərurəti ön plana keçir. Daha dəqiqi desək, bu sahədə çalışan tədqiqatçıların bir qismi “millilik” və “millətçilik” məfhumları üzərində qurulan ideya və metodologiyalardan tədricən uzaqlaşaraq, kosmopolitik metodologiyaya keçməyi təklif edirlər[17].

Adı çəkilən yarımfəsildə qeyd edilir ki, mədəniyyətlərarası dialoq çərçivəsində ardıcıllıqla həyata keçirilən tədbirlər arasında ilk növbədə sosial-iqtisadi və mədəni sahələrdə aparılan siyasəti, bir çox beynəlxalq layihələrin reallaşdırılmasını, Azərbaycanın elm və mədəniyyətin inkişafı ilə bağlı bir sıra Qərbi Avropa çərçivə proqramlarına qoşulmasını və sairəni göstərmək olar.

Məlum olduğu kimi, bu proseslərdə Azərbaycan həm YUNESKO, Avropa Şurası, həm də digər beynəlxalq təşkilatlarla birgə müvafiq proqram və tədbirlərdə fəal iştirak edir.

Son zamanlar Azərbaycanda və bütövlükdə regionda yaşanan siyasi proseslərin bəzi mənfi təsirlərinə baxmayaraq, milli mədəniyyətin inkişafı yolunda əsas prioritet istiqamətlər seçilmiş, bu sahədə məqsədyönlü və faydalı işlər aparılır. Bunlar arasında müxtəlif mədəni sahələrə aid əməkdaşlığı göstərmək olar.

Nəzərə çatdırılır ki, Qərb-Azərbaycan mədəni əlaqələri ümumdünya sosial-siyasi münasibətlər sistemində uğurla inkişaf edir. Bir sözlə, müasir Qərb və Azərbaycan arasında mədəni inteqrasiya, maddi, mənəvi mədəniyyət nümunələrinin mübadiləsi, mədəniyyət günlərinin keçirilməsi, şəhərlərin qardaşlaşması, sərgilərin təşkili, mədəniyyət mərkəzlərinin yaradılması, elmi-bədii əsərlərin tərcüməsi, mədəni irsin mühafizəsi sahəsində əməkdaşlığın inkişafı çərçivəsində həyata keçirilir. Qeyd edilir ki, Azərbaycan həm coğrafi

[17] Маршалл Маклюэн и информационные войны // www.pseudology.org



mövqe, həm də mədəniyyətlərarası münasibətlər baxımından körpü rolunu oynayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Bakıda İkinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında söylədiyi nitqində demişdir: “Bizi multikulturalizmin inkişafı, mədəniyyətlərarası dialoqun uğurlu gələcəyi və, beləliklə, dünyada gedən müsbət meyllərin gücləndirilməsi amalı birləşdirir. Belə olan halda biz də çalışmalıyıq ki, öz işimizlə, öz praktiki addımlarımızla bu müsbət meylləri gücləndirək” [18].

Beləliklə, araşdırılan mövzunun faktiki materiallar əsasında hərtərəfli, sistemli və fəlsəfi təhlili sübut edir ki, mədəni əlaqələr mədəniyyət sistemində əsas yer tutan, milli mədəniyyətləri qarşılıqlı sürətdə zənginləşdirən, tanıdan, yayan, təbliğ edən və ümumdünya mədəniyyətini zənginləşdirən mühüm bir fenomendir.

Dissertasiyanın bu yarımfəslində biz regionda və bütövlükdə dünyada milli mədəniyyətlərin qarşılıqlı təsiri xüsusiyyətlərini araşdıraraq bu qənaətə gəlmişik ki, milli mədəniyyətlər problemi bilavasitə idarəetmə praktikası ilə bağlıdır, ona görə də ölkənin, habelə bölgənin tarixi inkişafı kontektində təhlil olunmalıdır.

**Nəticədə** göstərilir ki, tədqiqatın predmeti olan milli mədəniyyətlərin sosial zaman və məkan hüdudlarında inkişafı olduqca mürəkkəb və uzun müddətli bir prosesdir. Bu sahədə elmi araşdırmalar davam etdirilməlidir ki, sosial həyatın mühüm sahələrindən biri olan milli mədəniyyətlərin inkişaf istiqamətləri və gələcəyi daha dəqiq müəyyənləşdirilsin.

Müəllifin qənaətə gəldiyi əsas nəzəri müddəalar, praktiki tövsiyələr və strateji istiqamətlər məntiqi ardıcıllıqla ümumiləşdirilərək dissertasiyada öz əksini tapmışdır.

## İddiaçının dissertasiyanın mövzusu ilə bağlı aşağıdakı elmi əsərləri çap olunmuşdur:

1.Milli mədəniyyətlər tarixi yaddaş və sivilizasiya kontekstində // AMEA, Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. YUNESKO-nun təsis etdiyi “Ümumdünya fəlsəfə günü”nə həsr olmuş beynəlxalq

[18] Bakıda II Ümumdünya Mədəniyyətlərarası Forumunun açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi // “Azərbaycan” qəzeti, 31 may 2013-cü il, № 117 (6392)

elmi-nəzəri konfransın materialları. Bakı: Təknur 2011, s. 350-357.
2.О философском содержании понятия "национальная культура" //Національний педагогічний університет імені М.П.Драгоманова. Украінска Академія Наук. Гілея. Науковий вісник. Випуск № 63 Киів: 2012, s. 418-424
3.Mədəniyyət məqsədyönlü insan fəaliyyətinin mühüm tərkib hissəsi kimi // ADMİU. Mədəniyyət dünyası XXIII. Bakı: 2012, s. 146-150.
4. Milli mədəniyyətlərdə qloballaşma prosesi tarixi gedişatın obyektiv şərti kimi // ADMİU, "Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial-mədəni inkişaf" mövzusunda beynəlxalq konfransın materialları. 21-22 dekabr, 2012. ADMİU-nun 90 illik yubileyinə həsr olunur. Bakı-2012, s. 31-34.
5."Modus Vivendi" (Həyat tərzi) mədəniyyətin göstəricisi kimi // AMEA, Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, Elmi əsərlər № 1(18) Bakı – 2012, s. 81-85.
6. Müasir Qərb və yeniləşən Azərbaycanın mədəni əlaqələri mədəniyyət sistemində// AMEA, Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. YUNESKO-nun təsis etdiyi "Ümumdünya fəlsəfə günü"nə həsr olmuş beynəlxalq elmi-nəzəri konfransın materialları. Bakı: Təknur, 2012, s. 168-178.
7. Vətəndaş cəmiyyətinin formalaşmasında milli mədəniyyətlərin yeri və rolu // ADMİU. Mədəniyyət dünyası. XXV Bakı-2013, s. 94-101.
8. Milli mədəniyyətdə islam amili: sosial-fəlsəfi aspekt // BDU, İlahiyyat fakültəsinin Elmi məcmuəsi, №19, iyun 2013, s. 229-236.
9. О роли СМИ Азербайджана в формирование национального самосознания // Императивы творчество и гармонии в проекти-ровании человек мерных систем. Материалы международной научной конференции, г. Минск, 15-15
ноября 2012 г. Минск: «Право и экономика», 2013, s.494-496.
10. Qloballaşan dünyada mədəniyyət probleminin sosial-fəlsəfi təhlili // AMEA-nın Məruzələri, 2013, N 1, s 124-133.
11. Mədəniyyətin milli – etnik mahiyyəti fəlsəfi dəyərlər sistemində // BAU, Sivilizasiya elmi nəzəri jurnalı, 2013, № 4, s. 29 – 36.
12. Milli mədəniyyətlərin inkişafında varislik və müasirlik prinsiplərinin sosial-fəlsəfi təhlili// BAU, Sivilizasiya elmi-nəzəri jur nalı , 2014, № 5, s. 43-49



**Нигяр Акрам кызы Гусейнова**

## НАЦИОНАЛЬНЫЕ КУЛЬТУРЫ В ПРОСТРАНСТВЕННО-ВРЕМЕННОМ КОНТЕКСТЕ: СОЦИАЛЬНО-ФИЛОСОФСКИЙ АНАЛИЗ

## РЕЗЮМЕ

Диссертация, посвященная изучению социально-философских аспектов проблемы национальных культур в пространственно-временном аспекте, состоит из введения, трех глав, девяти параграфов, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы, излагается степень исследованности проблемы, определяются объект и предмет исследования, цели и задачи, методы и методология, раскрываются новизна и практическая значимость диссертационной работы.

В первой главе «Взаимосвязь национальных культур на социальном пространственно-временном уровне как объективная закономерность исторического развития» рассматривается взаимосвязь общечеловеческой и национальной культур с точки зрения общественных отношений, раскрываются исторические этапы их развития. Также изучаются вопросы преемственности и взаимосвязи в культуре вообще, и в национальной культуре в частности. Наряду с этим, в данной главе исследуются особенности развития национальных культур в рамках социального пространства и времени, специфика их становления в различных регионах мира, а также рассматриваются различные подходы к данному вопросу.

Во второй главе «Национальные культуры - системы универсальных философских ценностей, обладающие механизмом взаимодействия» прежде всего дается социально-философский анализ принципов преемственности и современности в развитии современных национальных культур. Особое внимание уделяется месту и значимости национальных культур в формировании гражданского общества. Подчеркивается значимость влияния процессов глобализации на национальные культуры, как объективного фактора.

В третьей главе «Азербайджанская национальная культура в контексте социального времени: социально-философский анализ» основное внимание уделяется исследованию реалий современного Азербайджана и роли её культуры в развитии и становлении национального самосознания. В данной главе изучается роль национальной культуры в модернизации современного азербайджанского общества, а также проблемы развития межкультурных взаимосвязей Азербайджана со странами Европы.

В заключении подытоживаются основные результаты диссертационной работы, рассматриваются дальнейшие перспективы изучения исследуемой темы, а также даются практические рекомендации и предложения, направленные на повышение эффективности межкультурных связей.

**Nigar Akram Qizi Huseynova**

## NATIONAL CULTURES IN THE SPATIO-TEMPORAL CONTEXT: SOCIAL-PHILOSOPHICAL ANALYSIS

## SUMMARY

In the introduction the urgency degree of investigation revealed problems defined object and subject of study, goals and objectives, methods and methodology disclosed novelty and practical significance of the thesis.

In the first chapter, " The relationship of national cultures on the spatio- temporal level as an objective law of historical development" discusses the concept of culture and national culture in terms of social relations , analyzes the problem of national and universal in the philosophy of culture and historical stages of its development , as well as outlining the issues of succession and relationships in the ratio of national and universal culture in general, in the national culture - in particular. In addition, this chapter examines the features of the development of national cultures in the social space and time, outlines the features of development of national cultures in different regions of the world, research approaches to this issue.

In the second chapter of "National culture - a system of universal philosophical values that have a mechanism of interaction" especially given the socio-philosophical analysis of the principles of continuity and modernity in the development of modern national culture. In addition, special attention is paid to the place and importance of national cultures in the creation of civil society. Also focuses on the issue of globalization and national cultures in terms of the impact of globalization as an objective factor in the development of national cultures.

In the third chapter of "The Azerbaijani national culture in the context of space and time: the philosophical analysis", focuses on the study of the realities of Azerbaijan from the point of view of the role of culture in the development process of the formation and development of national consciousness.

In addition, it deals with the factor of national culture in the modernization of the Azerbaijani society, as well as the problem of the relationship between Europe and Azerbaijan in renewing the national-cultural perspective.In conclusion, the findings are given the necessary recommendations for the further study of the problem.



**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ И ПРАВА**

На правах рукописи

**НИГЯР АКРАМ кызы ГУСЕЙНОВА**

# НАЦИОНАЛЬНЫЕ КУЛЬТУРЫ В ПРОСТРАНСТВЕННО-ВРЕМЕННОМ КОНТЕКСТЕ: СОЦИАЛЬНО-ФИЛОСОФСКИЙ АНАЛИЗ

Специальность: 7207.01 – Социальная философия

## АВТОРЕФЕРАТ

Диссертации на соискание ученой степени доктора философии по философии

**БАКУ – 2014**

**AMEA-nın mətbəəsində çap olunmuşdur**
**Tiraj-100**